# Tələbələrdə müstəqil fəaliyyətin təşkili məsələləri

**Firuzə Ədalət qızı Rzayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dillər Universiteti*
**E-mail:** fira_350@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos. R.A. Salahov

**Açar sözlər:** müstəqil iş, təlim fəaliyyəti, avtonomiya, xarici dil
**Ключевые слова:** самостоятельная деятельность, учебная деятельность, автономия, иностранный язык
**Key words:** independent work, training, autonomy, foregen language

Yaşadığımız dövrdə ali təhsil müəssisələrində tələbələrin əsas işi təkcə bilik, bacarıqları mənimsəməklə bitmir. Bu işdə tələbədən ortaya qoyulan məsələnin həllinə müstəqil, obyektiv şəkildə yanaşmaq, yüksək aktivlik göstərmək, qarşıya qoyulmuş işi həyata keçirməyə istiqamətlənmək və s. yüksək təşəbbüskarlıq tələb olunur. Ətraf mühit üçün bu cür şəxsiyyətin formalaşdırılmasında tədris müəssisələrində keçirilən xarici dil dərsləri də xüsusi əhəmiyyət kəsb edir. Çünki dilin öyrənilməsi öyrənənlərdən xüsusi maraq, təşəbbüskarlıq tələb edir. Digər tərəfdən beynəlxalq əlaqələrin inkişafı, iqtisadi-siyasi, elmi-mədəni, təhsil üzrə əməkdaşlıq, dünyada insan hüquqları və azadlıqlarının qabaqcıl yer tutması formalaşmağa meylin gücləndiyini göstərir.

Bütün fəaliyyət sahəsində əsas rol insana məxsusdur. İnsan o vaxt cəmiyyətdə fəal rol göstərir ki, o, yüksək şəxsiyyət xüsusiyyətlərinin daşıyıcısı olsun, cəmiyyətin inkişafına can atsın. Müasir dövrümüzdə ali təhsil müəssisələrinin qarşısındakı əsas tələblərdən biri də öyrənənlərin yaradıcı qabiliyyətlərini üzə çıxarmaqdan ibarətdir. Cəmiyyətimizin inkişafında ali təhsil ocaqlarının məzunları yaradıcı olmaq, azad fikirləşmək, qarşılarına çıxan məsələlərin həllində düzgün mövqe seçə bilmək, sözün əsl mənasında, müasir dövrün standartlarına cavab verən vətəndaşlar formalaşdırmaqdır.

Aydındır ki, xarici dillərin tədris edilməsi üzrə təlim-tərbiyə işi daha çox fərdi inkişaf fəaliyyətinə söykənir, həmçinin tələbənin müstəqil idrak bacarıqlarını da inkişaf etdirir. Ötən illərlə müqayisədə, bu gün tələbənin müstəqil fəaliyyəti pedaqoji işin əsas hissəsinə çevrilmiş, həmin prosesdə əsas amil kimi qəbul olunmuşdur. Lakin, yanaşma həm nəzəri, həm də praktik olaraq xarici dil məşğələlərində öz həllim tapmaqda çətinlik çəkir. Bu səbəbdən də bəzən tədris prosesində tələbə müstəqil işinə ayrılan vaxtı düzgün təşkil edə bilmirlər. Buna görə də problemin müasir dövrümüzdə aktuallığını nəzərə alaraq tələbələrdə müstəqil fəaliyyətin formalaşdırılması məsələlərinin araşdırılmasının vacib olduğunu vurğuladıq.

Bildiyimiz kimi, müstəqil iş dedikdə onun tətbiqi imkanları təkcə "pedaqoji proses" dairəsində məhdudlaşmır. "Müstəqillik" yaşadığımız dövrdə həyatın bütün sahələrində şəxsiyyətin özfəaliyyətini təmin etməkdədir. Məsələyə didaktik cəhətdən nəzər yetirdikdə isə insan öz biliklərini müstəqil surətdə artırmaq vərdişinə yiyələndikdə müvəffəqiyyəti bol olur. Gənc nəsli müstəqil həyata hazırlamaq cəhdi universitet müəllimlərinin qarşısına qoyulan ən böyük şərtlərdən biridir. Müstəqil işin metodikamızda istifadə olunma tarixinə nəzər salsaq, onun ənənəvi təlimdə nəzəri cəhətdən yer aldığının şahidi oluruq. Müasir səviyyədə edilmiş bu tədqiqat-

ların metodik-təcrübi istiqamətlərindən yararlanmaq, bu tarixi-pedaqoji mahiyyət daşıyan konsepsiyaların qorunub saxlanılması məqsədilə istifadə etmək müəllimlərin öhdəsinə düşən başlıca vəzifədir" (2, s. 11)

"Tələbələrin müstəqil işini bəzi hallarda tələbə avtonomiyası da adlandırmaq olar. Tələbə avtonomiyasına ötən onilliklərdən bəri rast gəlinir. İlk dəfə Henri Kolec tərəfindən 1981-ci ildə bu termin istifadə olunmuşdur. Bir çox metodistlər tərəfindən müxtəlif təriflər verilmişdir. Belə ki, bəzi müəlliflər bunu təhsildə bir vasitə kimi, bəziləri isə bir sonluq kimi görürlər.

Müstəqil öyrənməni ənənəvi qəliblənmiş formadan bir çox fərqlərini göstərərək, ənənəvi formanın bir çox xüsusiyyətlərini müstəqil öyrənməyə zidd göstərirlər. Ənənəvi formada hər gün öyrəncilər eyni vaxtda, eyni fəaliyyəti eyni üsulla həyata keçirirlər. Tədris mərhələsini isə avtoritar mövqeyini tutan müəllim reallaşdırır. Nəticədə daim müəllimdən asılı olan tələbələr yetişir" (9, s. 52-59).

Burada tələbələrin individual keyfiyyətlərinin nəzərə alınmamağı təəssüfə səbəb olan bir xüsusiyyətdir. Həmin öyrəncilərin də nəticələrinin bənzər olduğunu görmək də təəccüb doğurmur. Lakin əvvəlcədən müstəqilliyə alışdırılmış tələbələr isə potensiallarını hiss edərək həyatın hər bir sahəsində, təhsil də daxil olmaqla irəliləməyə müvəffəq olurlar.

Dil öyrənmədə müstəqil öyrənməni tələbəyə mənimsətmənin faydalarını müəyyənləşdirərkən nəzərə almaq lazımdır ki, dil öyrənmə prosesi uzun müddətli bir proses olduğu üçün tələbə hər zaman bir pedaqoqla ünsiyyətdə və ya hər hansısa bir təhsil proqramında müntəzəm dərslərə yazılmaya bilər. Yəni hər hansısa bır təhsil müəssisəsinə davamiyyətli şəkildə baş çəkməyə bilər.

İngilis dilinin tədrisi zamanı tələbələrə danışığı öyrədərkən bu dilin müstəqil öyrənilməsi və istifadə edilməsi üçün burada müxtəlif üslubların olduğu öyrədilməlidir və onların özlərinin bu dili istifadə edərkən doğru üslubu seçməyi vərdiş halına gətirməyin vacib olduğunu Penni Ur vurğulayır.

"Tələbələrə ingilis dilini tədris edərkən onlara əsasən başa düşməyin və başa düşülməyin yollarım öyrətmək lazımdır. Dil öyrənmədə ilkin mərhələdə dörd vərdişin demək olarki, hər birinin ən asan və ən çox istifadə olunan variantını öyrətmək lazımdır. Məsələn, "fortnighf" öyrətməkdənsə, "two weeks" daha məsləhətlidir. (6, s. 4)

Ali təhsil müəssisələrində xarici dil dərslərinə marağın artırılması, motivasiyanın yüksək tutulması müəllim əməyinin danılmaz bir hissəsidir. Bu faktorlar tələbənin müstəqil fəaliyyəti ilə birbaşa əlaqəlidir. Müəllim tələbədə öyrənilən dilə qarşı pozitiv mövqe yaratmağı bacarmalıdır. Müəllimlər tələbəyə müstəqil öyrənməni təcrid olunmuş vəziyyətdə öyrənmə ilə səhv salmamağı aşılamalıdırlar. Belə ki, müstəqil öyrənmədə müəllimlər də, həmyaşıdlar da fəaliyyətin bir hissəsidirlər.

Bəzən müstəqil öyrənmədə yanlışlıqla təlimatçıya ehtiyac olunmadığına dair bəzi mülahizələr gətirməyə çalışırlar. Çox az sayda tələbələr ali məktəbə müstəqil işləyən tələbə kimi gəlir. Əksər tələbələr isə təəssüf hissi ilə qeyd olunmalıdır ki, müəllim avtoritar rejimindən gəlmiş tələbələrdir. Demək ki, müəllim auditoriyada avtonomiya öyrənməni təkmilləşdirən etdirən əsas qüvvədir.

Günümüzə qədər aparılmış elmi araşdırmalara görə nəinki tələbə müstəqil fəaliyyətinin reallaşdırılmasında, ümumiyyətlə təlim prosesinin həyata keçirilməsində müəllim əməyinin rolu inkaredilməzdir. Şübhəsiz ki, məktəbin strukturunda əsas yeri müəllim və tələbə tutur.

Müstəqil işi həyata keçirmək üçün tələbələrdə bir çox fərdi keyfiyyətlər inkişaf etdirilməlidir. İlk növbədə onlarda bu işi həyata keçirmək üçün əzm, istək, daha sonra isə özünəinam olmalıdır. Əgər bu keyfiyyətləri tələbədə yaratmaq mümkün olmuşsa, artıq öyrənən üçün hə-

dəflərini aydınlaşdırmaq, tədris materiallarını seçmək, özünüqiymətləndirməni həyata keçirmək kimi məsələlər öz həllini tapmış olacaq.

Bəzən tələbəni müstəqil öyrənən etmək üçün onlara hansı vərdişlərin aşılanması sual doğurur. Nəzərə almaq lazımdır ki, bu hər bir müəllimə görə dəyişən məsələdir, yəni müəllimin tələbəni hansı dərəcədə sərbəst görmək gözləntisindən asılıdır, müəyyən mərhələlərdən keçən prosesdir. İlk öncə dərslikdən kənar tədris materiallarını əldə etmək və onları necə istifadə etməyin yollarını onlara inkişaf etdirmək lazımdır. İnternet mənbələrindən necə məlumat almaq, hansı xəbər saytlarından istifadə etmək, onlayn qəzetlər oxumaq və onların ev tapşırığının tamamlanmasında vasitə kimi göstərmək məqsədəuyğundur.

Sonraki mərhələdə isə artıq öyrənən məqsədlər qoymaq, onları reallaşdırmaq, özünütəhsilləndirməni planlamaq, özünüqiymətləndirməni həyata keçirmək kimi bacarıqlara yiyələnməyə nail olacaqdır. Təlimatçı tədris prosesində öyrənənlərinin hansı strategiyalarından daha çox istifadə etdiyini və hansıların onlarda daha effektiv nəticə göstərdiyini nəzərə alıb həmin istiqamətdə onları daha çox motivasiya etməlidir. Hər hansısa tapşırıq verildikdə onun həlli yollarında araşdırma, müzakirə, sual-cavab kimi strategiyaları tətbiq etməyin daha faydalı olduğu nəzərə çatdırılmalıdır. Bundan sonra isə tələbə özünə uyğun strategiyanı seçməlidir.

Pedaqoji prosesdə baş verən müstəqil işlərin təzahür formaları bir çox hallarda təlim prosesi ilə əlaqələndirilir. Təlim prosesində elmin son nailiyyətləri öyrənənlərə ötürülür, istər nəzəri, istərsə də praktik bacarıq və vərdişlər onlara aşılanır, onların vətən üçün rəqabətəqabil, çevik vətəndaş kimi püxtələşməyinə yaxından maraq duyulur. Bu yöndə nəsil yetişdirməyin ən faydalı yollarından biri təlim fəaliyyətində öyrədilənləri real həyat hadisələri ilə əlaqələndirib əldə olunan nəzəri biliklərin praktik həyati tələbatlarla vəhdətini yaratmaq daha məqsədəuyğun ola bilər.

Tələbənin müstəqil fəaliyyətinin reallığını və əhəmiyyətini didaktik vəzifələrə görə həyata keçirməyi nəzərdə tutan görkəmli rəhbərin ideyalarından anlamaq olur ki, hələ orta məktəbdə təhsil alarkən şagirdləri azad, heç bir əlavə kömək olmadan işlədilməsi prosesinə başlanılmalıdır. Bu zaman valideyn dəstəyinə də müəllimin ehtiyacı olur. Tələbənin evdə belə müstəqil fəaliyyət göstərməsi, bu fəaliyyətin üzərində valideyn nəzarətinin də özünəməxsus əməyi vardır. Evdə adətən uşaqların öz işlərinin məsuliyyətini öz üzərlərinə götürmələri, məsələn: öz otaqlarını səliqəyə salmaq, yemək yedikdən sonra stolun üzərini qaydaya salmaqda valideynə kömək göstərmək kimi fəaliyyətlər də müstəqil işin öyrənənin təfəkküründə inkişaf etməsinə kömək edir.

Müstəqil iş tələbənin diqqətinin dərsə cəlb edilməsinin ən uğurlu yollarından biridir. Tələbədə bilik əldə etmək üçün maraq oyanır. Ən başlıca şərtlərdən biri isə təlim mərhələsində tədris edilən mövzunun tələbəyə aydın şəkildə çatdırılmasıdır.

“Ali məktəbdə xarici dil təlimi prosesində də tələbələrdə təlim əməyinə müsbət istiqamətli meyil və maraq yaratmağın mühüm şərtlərindən biri kimi, bu işin səmərəli təşkilini, məzmununu, həyata keçirilməsinin elmi-nəzəri əsaslarını, yeni konseptual metodologiyasını hazırlamadan, dərin, nəzəri və təcrübi hazırlığa malik müstəqil düşüncəli nəsil də formalaşdırmaq olmaz.

Tələbənin müstəqil çalışması məşğələyə olan marağını artırır, bilik almağa onda həvəs oyadır. Odur ki, məşğələ prosesində haqqında bəhs etdiyimiz mövzu tələbəyə tam aydın olmalıdır. Bu aydınlığı fənn müəllimi şablon etaplarla, kortəbii olaraq etməməlidir. Yəni, yeni öyrədiləcək mövzunun çətin və ya asan olmasından asılı olmayaraq tələbəyə hazır bilik vermək lazım deyil. Belə bilik tələbəyə heç nə vermir, müəllimin izahından asılı olmayaraq hazır bilik, bacarıq, vərdiş və mənəvi keyfiyyətlər mənimsətmək üsulu keyfiyyətsiz xarakter daşıyır

və unudulur. Aşağı kurslarda (I-II) xarici dil dərslərindən tələbələr dilə, onun nəzəri və praktik cəhətdən öyrənilməsinə aid müəyyən biliyə malikdirlər, dil hadisələri, onların gedişi, qanunauyğunluqları, təbii komponentləri arasındakı asılılıq, xarici dil materiallarını mənimsəmək və tətbiqi vəhdəti ilə bağlı biliyə yiyələniblər” (6, s. 17).

Müasir dövrümüzdə təlim prosesinə müstəqil işin tətbiq edilməsində təlimin təşkili formaları, məzmunu, metod və vasitələri, qiymətləndirmə prosesi nəzəri və praktik cəhətdən araşdırılır. “Tələbə avtonomiyası” anlayışı pedaqoji ədəbiyyata tədricən daxil olur. Müstəqil fəaliyyət zamanı tələbəni fəallığa sövq edən interaktiv metodlardan istifadə olunması tövsiyə olunur. Tələbənin diqqətinin tam olaraq təlim, təhsil üzrə cəmləşməsində müstəqil işin əhəmiyyəti barəsində pedaqoqlar munasibət bildirmişdirlər. Müəllif təlimə maraq hissini formalaşdırmağın müxtəlif üsullarından bəhs edərkən müstəqil düşüncə və idrak tərzindən istifadənin mühüm olduğunu və təlim ilə tərbiyənin birgə vəhdətindən faydalanmaqla tələbədə müstəqil fəaliyyətin vərdiş halına çevrilməsinin mümkünlüyünü vurğulayır. Həmçinin Nurəddin Kazımov təlim prosesində özünənəzarəti də müstəqil fəaliyyətdə digər bir istiqamət kimi göstərir: “Müstəqil işin ayrı-ayrı növləri geniş təlim və tərbiyə imkanlarına malikdir. Zaman ötdükcə hər bir sahədə dəyişikliklər olduğu kimi təhsil sahəsində də olan yemliklər öz sözünü deyir. İllər öncə əgər dərs müəllimyönlü təşkil olunurdusa, bu gün metodikamızda tələbəyönlü dərslərin həyata keçirilməsi məqsədyönlü hesab olunur. Müəllimyönlü tədris prosesində müəllim aktiv iştirakçı kimi çıxış edir, daha dəqiq dildə desək, dərsdə praktikadan çox nəzəriyyə böyük yer alır. Öyrənən oxu, yazı, danışıq, dinləmə vərdişlərindən məhsuldar istifadə edə bilmir. Tələbəyönlü təşkil olunmuş sinifdə müstəqil işləmək kimi vərdişlər inkişaf etdirilir. Bu zaman ortaya tələbənin dərsdə müstəqil işləməsi və müəllim rolunun əhəmiyyəti barədə sual yaranır. Bəzən tələbəyönlü təşkil olunmuş sinif otağında müəllim rolunun əhəmiyyətinin az olduğunu vurğulayırlar. Baxmayaraq ki, auditoriyada orta məktəbi bitirib ali məktəbə qədəm qoyan tələbələr var, onların əksəriyyətinin müəllimyönlü təşkil olunmuş siniflərdən gəldiyinin şahidi oluruq. Bu da hələ də universitet tələbəsi olsa belə, tələbənin müəllimdən asılı olmadığı analmına gəlmir. Belə tələbələrin hələ də müəllimin qiymətləndirməsinə, verdiyi instruksiyalara, istiqamətə, öyrənmə strategiyalarını seçməkdə köməyə ehtiyacı var. Görkəmli metodist Penny Ur qiymətləndirmənin müstəqil fəaliyyətə əsaslı təsiri olduğunu kitablarının birində vurğulayır (9, s. 67-69).

İstər orta məktəblər, istərsə də ali məktəb ocaqlarında müstəqil iş kimi tələbələrə öyrədilən bilik, bacarıq, vərdişlərin hansı dərəcədə mənimsənilməsinin yoxlanılması üçün müəyyən tapşırıqlar verilir. Bu tapşırıqların bəziləri sırf tədris olunan bölmə və ya fəsil ilə əlaqəli olur, bəziləri isə idrak xarakterli olur. İdrak xarakterli tapşırıqlarda faktları analiz-sintez, qruplaşdırma, planlaşdırma, bölmənin digər bölmə ilə əlaqəsi, fənlərarası inteqrasiya üzərində fəaliyyət aparılır. Pedaqoji təfəkkür baxımından hər bir öyrənən müstəqil işin təşkili yollarını zənginləşdirən həm nəzəri biliklərdən, həm də məqsədə uyğun praktikadan məlumatlı olmalıdır.

Tələbələrin yaradıcılıqlarını nümayiş etdirmək digər fənlərə nəzərən xarici dil dərslərində daha çox rol oynayır. Ümumiyyətlə, dil öyrənən insan ilk növbədə yaradıcı olmalıdır. Xarici dil məşğələlərində öyrənənlərin maraq dairəsini, yaradıcı qabiliyyətlərini, akademik bacarıqlarının səviyyəsini nəzərə alıb, onu yeni texnologiyalarla əlaqəli şəkildə tədris etmək lazımdır. Bu səmərəli şəkildə tələbələrdə nəticə verə bilər. Bununla yanaşı müstəqil işlər təfəkkür və təxəyyülün inkişafına yol açan intellektual bacarıqların formalaşmasını əsas mahiyyət kimi nəzərə almalıdır, zehni və ya əməli problemlərin həllinə istiqamətlənməlidir. Qabaqcıl müəllimlərin dərsində bu özünü daha aydın büruzə verir. Belə ki, onların fəaliyyətində dərs fikir yürütmək, müstəqil mülahizələr söyləmək, tələbələrin öz yoldaşları və müəllimlə ideya müba-

diləsi aparmaq zəminində qurulur.

Dərs zamanı və ya dərsdənkənar tələbə müstəqilliyi öyrənmə və öyrətmə prosesi ilə birbaşa əlaqəli olduğundan müəyyən yollar, strategiyalar təklif olunarkən onların elmi-pedaqoji təhlilə ciddi tələbatı yaranır. Göstərilən hər bir tövsiyə heç də həmişə didaktik problemlərin həlli üçün müsbət nəticə ilə sonlanmır. Yaradıcı müstəqil tipli işlərin icrası müəllimin dərin elmi-pedaqoji kompetensiyasına əsaslanır. Müəllimin səriştəsizliyi bir çox nöqsanlara yol açır. Auditoriyaya daxil olan müəllim görür ki, tələbələrin əksəriyyəti mövzunu yaxşı qavramayıb, onlarda təlimə qarşı maraq hissi yaranmayıb. Bu zaman müəllim metodlarını, pedaqoji fəaliyyətini təkmilləşdirmək əvəzinə materialı sadələşdirməyə, bir neçə dəfə təkrara, lazımsız xırdalıqlara yol verir. Müəllim müvəqqəti uğura nail olsa da, bu tələbədə uzunmüddətli təsir yaratmır, yalnız məşğələ saatında tələbə təlimə cəlb olunur. Bəzən də dərsi real hadisələrlə əlaqələndirməyin əhəmiyyətini səriştəsiz müəllim düzgün anlamır. Belə ki, dərsi özlüyündə maraqlı etmək üçün lazımlı-lazımsız həyatdan sitatlar gətirir, bu da dərsin keyfiyyətinə əsaslı təsir edir. Bəzən dərsin motivasiya hissəsində xüsusilə də bu fənn xarici dildirsə, müəllim dərsin zahirən maraqlı olmasına çalışır, musiqi parçaları, kinolardan hissələr, öyrənilən dilin məxsus olduğu xalqın adət-ənənəsinə uyğun materiallar gətirir, bir çox tələbələr isə bundan sui-istifadə etməyə başlayırlar, yəni gətirilən hər bir əlavə materialın dərsin gedişatına müsbət təsir göstərməsi üçün müəllim onlardan səmərəli formada istifadə etməlidir.

"Tələbələrdə müstəqil yaradıcı fəaliyyət işi o zaman düzgün və optimal yolla müəyyənləşir ki, təlim prosesində tələbələr arasında motivasiya yaradılır, əməliyyat idrak prosesləri işə qoşulur, refleksiv-qiymətləndirmə dəyərləri açıqlanır, emosional aktivləşmə tələb olunur. Yaradıcı müstəqil iş meydana çıxan çətinliklərin aradan qaldırılmasına və yeni tədris materialının dərk olunmasına, başqa sözlə tədris idrak bacarıqlarının özünəməxsus şəkildə "möhkəmləndirilməsinə" xidmət etməlidir" (1, s. 262-263).

Müstəqil iş müəllimlər üçün böyük əhəmiyyət kəsb edir. Əldə olunmuş bilik, bacarıq və vərdişlərdən lazım olan qaydada istifadə olunmasına müəllimlər tərəfindən nəzarət olunur. Hər bir müəllim öyrənənin sinifdən kənarda istifadə edə biləcək öyrənmə bacarıqlarını inkişaf etdirməsini təmin etməlidir. Tələbə müstəqil işini də təşkil edərkən adətən strategiyalardan faydalanmaq və onları öyrənənlərə aşılamaq müəllimin üzərinə düşən öhdəliklərdən biridir. Müxtəlif mənbələrdə strategiyalardan müstəqil fəaliyyətdə istifadə etmək vacib amillərdən biri kimi göstərilib. Onlardan birində deyilir: "Öyrənəndə avtonomiya yaratmaq istəyən hər bir müəllim ilk növbədə onda tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirməyə təşəbbüs göstərməlidir. Yaradıcı təfəkkürün əsas vasitəsi uzun müddətli diqqət yaratmaqdır" (3, s. 92).

° Mövcud olan vəsaitlərdən müəllimin köməyi olmadan faydalanmaq

° Proqram üzrə nəzarəti öz öhdəsinə götürmək, heç bir nəzarətçi olmasa belə başladığı kimi tədris prosesinə davam etmək

° Tələbənin(şagirdin) özündə öyrənməyə vərdiş yaratmaq, öyrənmə strategiyalarını nəzərdən keçirmək, özünə yetərli olanı seçmək

° Avtonomiya tələbənin öz səhvlərini görmək bacarığını aşılamalıdır. Məsələn, tələbələrə tapşırıq verin. Bu hər hansısa inşa, yazı işi ola bilər, və yaxud tələbəyə deyə bilərsiniz ki, fərz edin redaktorsunuz, qəzetə məqalə yazırsınız. Bir dərsinizi buna ayırın. Onlara vaxt vermək lazımdır ki, işi bitirsinlər. Bitirdikdə səhvləri düzəltmək şansını verin, əvvəl tələbələrin yazdıqlarını yüksək səslə özlərinə oxutdurun. Tələbələr öz səhvlərini görə biləcəklər və vaxt keçdikcə bu qabiliyyət güclənəcəkdir. Çünki bəzi tələbələrdə özlərinə inam həddən artıq güclü olduğu üçün onlar bəzən səhvlərini belə görmək istəmirlər, sonda heç öz yazdıqlarını belə oxumaq istəmirlər. Tələbələrin sinifdə etdikləri səhvlərini dəftərlərinin ayrı bir hissəsində

qeyd kimi saxlamağı tələb edin. Daim gözəçarpan bir yerdə olmalıdır. Daha sonra bu səhvləri nəzərdən keçirmək üçün onları ev tapşırığı kimi təyin edə bilərsiniz .

° Müəyyən bir fəaliyyətə diqqətini uzun müddətdə yönləndirməkdə isə 3 strategiyaya müraciət edilməsi məqsədəuyğundur. Bunlara məlumatlarda ardıcıllığı tapmaq, onları düzgün sıralama, səhvlərdən nəticə çıxarmaq, məqsədləri əvvəlcədən aydınlaşdırmaq aid edilir.

Məlumatlar ardıcıllığının tapılması tələbələrdə daim tədqiqata meyl, nə isə kəşf və ya ixtira etmək kimi bir hissi ortaya çıxarmaq üçün bir üsuldur. Məsələn tələbələrə və ya şagirdlərə qrup işi və ya layihə etmək kimi tapşırıq verilir. Lakin tələbələrin hər birinə müxtəlif işlər tapşırılır. Onlar eyni dövrdə eyni fəaliyyət göstərmək əvəzinə hər biri fərqli aspektləri öyrənmək üçün müstəqil tədqiqatlar üzərində işləyirlər. Hər biri aldığı məlumatı, əldə etdiyi nəticəni birbirləri ilə mübadilə edirlər, təşkil olunmuş layihə, qrup işi tələbələri əməkdaşlıq etməyə məcbur edir. Bütün araşdırma başa çatdıqdan sonra onlarda tədqiq etdikləri obyekt haqqında daha dolğun təsəvvür var. Tələbələr belə fəaliyyəti maraqlı, məcburi və paylaşılan adlandırırlar. Belə ki qrup üzvlərinin bir- birindən asılılıq təşkil etdiyi səbəbilə hər kəs öz işini tam və dolğun yerinə yetirir. Bu fəaliyyətlərin hamısı da öyrənmənin daha effektiv olmasını təmin etmək üçün uzunmüddətli konsentrasiyaya təşviq edir.

Səhvlərdən nəticə çıxarmaq. Kommuninativ yanaşmada göstərildiyi kimi müəllim dərsdə fasilitator, təşkilatçı, ən önəmlisi də motivasiya edən rolunu oynayır. Buna görə də tələbə, şagird hər hansı bir səhv edərkən onların qaçınılmaz olmadığını bildirmək lazımdır və onlara keçmiş səhvlərdən öyrənmə qabiliyyəti təmin edilməlidir. Tələbəyə müəyyən bir tapşırıq verilir. Tələbə tapşırığı bitirən zaman ikinci dəfə onun öz yazdığını ona yoxlamaq üçün verilir, və ya dilləri tədris edərkən tələbə danışarkən onun səsi qeydə alınır, artıq növbəti dəfə öz səsinə qulaq asdıqda həm öz nitqində etdiyi səhvləri tapacaq, həm də bundan sonra bacardığı qədər həmin səhvləri təkrarlamayacaq.

Məqsədləri əvvəlcədən aydınlaşdırmaq. Hər bir fəaliyyəti həyata keçirərkən orada bu işi nə üçün etdiyini, nəyə nail olmaq istədiyini bilməsən uğur əldə edə bilməzsən. Tədris prosesinə başlamazdan əvvəl ilk olaraq müəllim tərəfindən nəyi öyrətmək istəyirəm, tələbə tərəfindən isə keçiləcək olan dərsdən nəyi əldə edəcəyəm kimi suallarına öz-özlüyündə cavab verilməlidir. Tələbələr hər hansı bir mövzuda nəyisə axtarıb tapmağa, araşdırmağa və ya kəşf etməyə motivasiya olsalar, sinif otağında müəyyən məqsədlər qoyacaqlar. Müstəqil cavab tələb edən suallar, həyatla əlaqədar məsələlər və onların hər birinin fikrinin nəzərə alınması onlarda özünü güvənə, həvəslənməyə səbəb olacaq.

Müstəqil iş aşılanan bilik, bacarıq və vərdişlərin real həyat hadisəsinə əsaslanmağı tələb edir. Bununla yanaşı ümumiləşdirmə, sistemləşdirmə, fərqli vəziyyətlərdə biliyin tətbiqi və yeni ünsürlərin yer alması vacibdir. İş öz məntiqliliyi və məzmunu ilə tələbənin öyrənməyə marağının yaxşılaşmasına səbəb olmalıdır. Bir nüans da qeyd edilməlidir ki, düzgün və ədalətli qiymətləndirmə kimi şəxsi keyfiyyətin də formalaşmasına xidmət edən iş tələbəyə təqdim olunmalıdır. Müəllimin düzgün idarəetmə strategiyası ilə zehni fəaliyyətinin bütün ağıla gələcək cəhətlərinin birlikdə inkişafı həyata keçirilir.

Müstəqil iş özü, nəzəri və praktik əhəmiyyət daşıyır. Bugünkü günümüzdə ölkəmizin müstəqil düşünən, öz ideyalarını yaradıcılıqla həyata keçirən, tənqidi təfəkkürə malik olan savadlı gəncləri bir mütəxəssis yetişdirmək kimi problem qarşıya qoyulmuşdur. Məsələnin mahiyyəti ondadır ki, problemi köklü həll etmək üçün səylə çalışmaq lazımdır. Aşağı kurslarda daha intensiv metodlarla mənimsədilən avtonomiya anlayışı sonrakı mərhələlər üçün müstəqil işə keçid rolunu oynayır.

Əminliklə deyə bilərik ki, təlimin hər bir mərhələsinin səmərəli təşkilində öyrənənlərə

müstəqil fəaliyyət göstərmək üçün optimal şərait yaradılmalıdır. Bunun üçün isə bizim öz işində məqsədli, "pedaqoji fəaliyyət" anlayışını bütün anlayışlardan üstün tutan müəllimlərə ehtiyacımız var.

**Məqalənin aktuallığı.** Tələbələrdə müstəqil fəaliyyətin səmərəli təşkili özünün aktuallığı ilə fərqlənir.

**Məqalənin yeniliyi.** Tələbələrdə müstəqil fəaliyyətin səmərəli diqqət mərkəzinə gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 134 s.
2. Kazımov N.M. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999, 340 s.
3. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005, 476 s.
4. Şukina Q. İ. Məktəb pedaqogikası. Bakı: Maaarif, 1982, 169 s. lö.
5. O'Malley, J.M., & Chamot, A. U. (1990) Learning Strategies in Second Language Acquisition. Cambridge: Cambridge University Press 305 p.
6. Oxford, R. L. (1990) Language Learning Strategies: What Every Teacher Should Know Boston, MA: Heinle & Heinle. 248 p.
7. Maslow A. Motivation and Personality. N.Y., 1954, 236 p.
8. New English File Pre-Intermediate. Oxford press, 2005, 172 p.
9. Nunan, David. 1988. The Learner-Centred Curriculum. Cambridge: Cambridge University Press, 247 p.
10. Penny Ur (2012) A Course in English Language Teaching. Cambridge University Press 325 p.
11. www.britishcouncil.org
12. www.blog.irisconnect.com 41 .www.busvteacher.org
13. www.institute41eaming.com
14. www.kavzen.az

**Ф.А. Рзаева**

## Проблемы организации самостоятельной деятельности студентов

## Резюме

Самостоятельная деятельность имеет теоретическое и практическое значение. В настоящее время в нашей стране выдвинута проблема обучения образованной, креативной и независимой молодежи. Сущность этой вопроса состоит в фундаментальном решении этой проблемы. Понятие "автономия" было извлечено из различных методов, которое позднее играет роль перехода в самостоятельную деятельность. Можно с уверенностью сказать, что на всех стадиях организации обучения учащимся должны быть созданы оптимальные условия.

**F.A. Rzayeva**

## The problems of organizing autonomus learning


## Summary

Independent work has theoretical and practical importance. Today, the problem of training literate, creative, and autonomus young people of our country as specialists are put forward. The essence of issue is that we shoud work hard to solve the problem fundamentally. The concept of "autonomy"that is adopted with different methods later plays transition to the independent work. Confidently, we can say that optimal conditions should be created to demonstrate to learners in all stages of organization of training. Therefor we need teachers preferring "pedagogical activity" to all other ones.


**Redaksiyaya daxil olub:** 19.02.2021